Ədəbiyyat qəzeti



5 dekabr / 2020

❍ *Mən filmin bəri üzünü, kameranın arxasını görməyi, onu filmlə bir yerdə "seyr etməyi" çox sonralar öyrəndim. Onacan mənim üçün kinonun üçüncü ölçüsü yox idi və ən maraqlı filmlə də əyləncə qura bilmirdim. Filmə inanmağa çalışdıqca daha çox çətinə düşürdüm. Kameranın bu tərəfini "görəndən" sonra film izləmək doyulmaz əyləncəyə çevrildi. Xoşbəxt idim! Pəncərədən baxıb gördüyün mənzərə daxil şüşəni də görə bilmək hər adama nəsib olmur. Ədəbiyyat da belədir. Ən çox da roman. Oxucu "müəllifin ölümü"nü nə qədər rahat qəbul etsə, hətta bunu bəyənsə də, çox dərinlərdə müəllifi görməyə çalışır, onunla ünsiyyətə can atır. Əsl oxucu heyrətləndiyi məqamlarda "Görün nə yazıb"dan çox, "Görəsən necə yazıb" deyir. Sonrakı suallar da mətnin bu üzünə - müəllifə daha çox ünvanlanır. Buna necə nail olub? Bunun üçün nələr oxuyub? Burda nə demək istəyib? Burda qəsdənmi ikibaşlı mesaj ötürüb? Burda hansı əsərə göndərmə edib? Bu işarəylə daha çox nəyi mənalandırıb? Və s. Çox oxumağın, kitabla daimi ünsiyyətə ehtiyac duymağın sirri burdadır. Onu əyləncəli hala gətirmək, ondan əvvəlki mətnlərdən az-çox xəbərdar olmaq və həmin mətnlərlə iş üzrə yazıçıya şahidlik etmək... Bu mənada Kamal Abdullanı hər zaman maraqla oxuyuram. Onun romanları mənə orkestri xatırladır və mən kitabı oxuya-oxuya həm də dirijora "balet edirəm". Kamal Abdulla geniş areala xitab edən yazıçıdır. Kitab okeanının adamıdır. Ondan çox sevdiyin yazıçı ola bilər, lakin ondan çox öyrənəcəyin yazıçı yoxdur! O, sözün həm konkret, həm geniş mənasında müəllimdir. Hamımızın müəllimidir. Hətta onu tanımayan, oxumayan yazarların da. 70 yaşın tamamında adam öz müəlliminə nə arzu edə bilər? Sağlamlıq və yaradıcılıq eşqi! Qalanını özü hamımızdan yaxşı bilir.*

*Şərif AĞAYAR*